"İnşaat konstruksiyaları" kafedrasının dosenti, texnika elmləri üzrə fəlsəfə doktoru, Əsgərov Cahangir Vəli oğlu 1958-ci ildə Füzuli rayonunun Qaraxanbəyli kəndində müəllim ailəsində anadan olmuşdur. 1964-cü ildə həmin kənd məktəbində 1-ci sinfə daxil olmuş və 1975-ci ildə məktəbi bitirmişdir. 1975-ci ildəAzərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsinin "Sənaye və mülki tikinti" ixtisasına daxil olmuşdur. 1980-ci ildə Azərbaycan Politexnik İnstitutundan ayrılaraq müstəqil fəaliyyət göstərən Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu qeyd olunan ixtisas üzrə bitirmişdir.İnstitutu bitirdikdən sonra göndərişlə B.A.Kuçenko adına METİK institutunun Bakı şəhərində yerləşən zəlzələyədavamlı tikintilər laboratoriyasında mühəndis vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

1983-cü ildən Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun "İnşaat konstruksiyaları" kafedrasına laboratoriya müdiri vəzifəsinə köçürülmüşdür.

1986-ci ildə Moskva İnşaat Mühəndisləri İnstitunda məqsədli aspiranturaya daxil olmuş və 1989-cu ildə namizədlik dissertasiyası müdafiə edərək alimlik elmi dərəcəsini almışdır.

1989-cu ildən fakültəmizin İnşaat konstruksiyaları kafedrasında assistent, baş müəllim və 2003-ci ildən dosent vəzifələrində çalışmışdır. 1997-2005-ci illərdə inşaat fakultəsində təlim-tərbiyyə işləri üzrə dekan müavini vəzifəsində calışmışdır. 1995-2000-ci illərdə AzMİU-nun Azad Həmkarlar İttifaqı sədrinin müavini vəzifəsində çalışmışdır. O, həmçinin 2004-2010-cu illərdə "Metal, ağac və plastik kütlə konstruksiyaları" kafedrasının müdiri vəzifəsində işləmişdir.

O, bu dövr ərzində 40-ə yaxın elmi məqalənin, 3 tədris proqramının və 2 dərslik və dərs vəsaitinin müəllifidir.

Əsgərov C.V. respublikamızda yüksək ixtisaslı peşəkar mütəxəssisi kimi bir sıra Elmi-Tədqiqat İnstitutları və dövlət qrumları ilə əməkdaşlıq etmişdir.O AzİMETİ-nin "Zəlzələyədavamlı Tikintilər" laboratoriyasında bir necə elmi-tədqiqat işlərinə rəhbərlik etmişdir. Əsgərov C.V. oğlu Agac konstruksiyalari və Polad konstruksiyaları Layihələndirmə normalarının hazırlanmasında yaxından iştirak etmiş və həmmüəlliflərdən biridir. Hal-hazırda Azərbaycan Respublikası Fövqaladə Hallar Nazirliyinin Tikintidə Təhlukəsizliyə Nəzarət Agentliyinin "Böyük aşırımlı metal konstruksiyalar müayinəsi" qrupunun rəhbəridir.

Tədris etdiyi fənnlər:

1. Metal konstuksiyaları
2. Ağac konstruksiyaları
3. Xüsusi metal konstuksiyaları